Qeyri-rəsmi tərcümə

# Pakistan Senatı

## Xarici Əlaqələr Komitəsi

**25 saylı ofis, Senat Komitələri Ofisi, Atatürk prospekti, G-5, İslamabad, Tel: 051-9223974, Faks: 051-9223975**

1 fevral 2012-ci il

## Qətnamə

Senatın Xarici Əlaqələr Komitəsi "Pakistanın Azərbaycan ilə münasibətləri"ni müzakirə etmək üçün 1 fevral 2012-ci il tarixində saat 14:30-da iclas keçirdi. Komitə aşağıdakılar barədə yekdilliklə qətnamə qəbul etdi:

i) Xarici Əlaqələr Komitəsi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalını və 26 fevral 1992-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı rayonunda mülki əhaliyə qarşı törədilən soyqırımı pisləyir.

ii) Komitə Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü dəstəkləyir.

iii) Komitə Ermənistanın bütün qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam şəkildə və heç bir qeyd-şərt olmadan çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının qətnamələrinin icrasını tələb edir və beynəlxalq ictimaiyyəti və beynəlxalq təşkilatları Ermənistanı bu qərarları icra etməyə sövq etməyə çağırır. Beynəlxalq ictimaiyyət həmçinin bu soyqırımına görə məsuliyyət müəyyən edə bilər.

iv) Komitə Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üzrə səylərini dəstəkləyir.